**SALMANOVA ŞƏFA MƏCİD QIZI**
**ADU**
**shafa.salmanova@mail.ru**

# AFFİKSLƏRİN KOMPONENT TƏHLİLİ

**Xülasə**

Kök olmayan bütün morfemlər affikslərdir. Affikslər kökə və ya əsasa artırılır və onların lüğəvi mənası olmur. Sonuncu cəhət aparıcı hesab edilir və buna görə də, yalnız qrammatik mənası olan morfemlər affikslər adlandırılır. İşarələnin tipinə görə affiksləri sözdüzəldici və sözdəyişdirici növlərini ayırmaq vacibdir. Bu affikslərin kökə, yaxud əsasa artırılması ilə kök və ya əsasın mənası dəyişir. Sözdüzəldici şəkilçinin vacib xüsusiyyəti onun yeni əsas yaratması ilə bağlıdır. Aqlütinativ dillərdə lüğəvi mənası olan kökə sözdüzəldici şəkilçi artırılaraq yeni söz düzəlir və bu sözə əsas deyilir. Flektiv dillərdə isə yaranan əsas müstəqil lüğəvi məna daşıyan söz olur və törədici əsas funksiyasında çıxış edir.

**Açar sözlər:** kök, şəkilçi, affiks, sözdüzəldici affiks, sözdəyişdirici affiks

Ümumiyyətlə, Azərbaycan dilçiliyində “şəkilçi morfemlər” və “şəkilçi” terminləri daha çox işlənir. Rus dilində “окончание” və onun substitutu kimi istifadə edilən “флексия” terminləri vardır. Bunlardan birincisi Azərbaycan dilinə çox zaman “şəkilçi”, nadir hallarda “sonluq” və “son şəkilçi “ kimi tərcümə olunur. Rus dilində “окончание” və yaxud “флексия” adlanan anlayış sözün sonunda yerləşən və onun qrammatik mənasını ifadə edən köməkçi morfemdir. Deməli, affiksin növlərindən biridir.

İstər rus, istərsə də Azərbaycan dilçiliyində affikslərin iki əsas qrupa bölünməsinə üstünlük verilir: 1) sözdüzəldici affikslər; 2) sözdəyişdirici affikslər. Azərbaycan dilçiliyində affiks termininin şəkilçi ilə eyniləşdirilməsi geniş yayılmışdır. Məsələn, B. Xəlilov yazır: “Sözün morfoloji quruluşunda kök və şəkilçi morfemlərin rolu böyükdür” [1, s.44]. M. Hüseynzadə Azərbaycan dilinin sözlərinin tərkibcə kök və şəkilçidən ibarət olduğunu qeyd edərək yazmışdır: “*Sözün əsas hissəsi dilçilik elmində kök, qeyri-əsas hissəsi isə şəkilçi adlanır*“ [3, s.4]. M.Hüseynzadə şəkilçinin kökə birləşməsinə də diqqət yetirmiş, ön (prefiks), iç (infiks) və son (suffiks) adı ilə şəkilşiləri üç yerə bölmüş, köklərdə əmələ gətirdikləri məzmun və şəkil dəyişmələrinə görə şəkilçiləri sözdüzəldici və sözdəyişdirici qruplarına ayırmışdır [3, s.10-11]. Müəllif dilimizdə ön şəkilçilərin işlənməsi məsələsinə də toxunmuşdur.

Müasir linqvistikada suffiks birikmələri, affiks zəncirləri, morfem zəncirləri, morfem kompleksləri və bir sıra başqa terminlərdən istifadə olunur. Flektiv dillərdə sözdüzəltmənin tədqiqi prosesində *suffiks qrupu, suffiks birikməsi, suffiks qovuşması* terminlərinin işlədilməsi müşahidə olunur. Rus dilçiliyində “протяженный аффикс”

termini bir-birinə qırılmaz şəkildə birləşən iki və daha çox affiksi tərkibində birləşdirən, sözdüzəltmədə bir morfem funksiyasında çıxış edən affiksləri ifadə edir. Bu dilin tarixi inkişaf prosesində iki suffiksin birləşərək bir suffiksə çevrilməsi kimi də izah olunur. Belə affikslər müxtəlif dillərin sözdüzəltmə sistemi üçün səciyyəvidir. Təbii ki, bu məsələ sözdüzəldici affikslərin növünə aid hadisə ilə bağlıdır.

Kök morfem və affiksal morfemlərin ayrılıqda araşdırılmasına affiksal morfemlərin müxtəlif meyarlar üzrə təsnifi ilə başlamaq olar. İşarələnin tipinə görə affiksləri sözdüzəldici və sözdəyişdirici növlərini ayırmaq vacibdir. Bu affikslərin kökə, yaxud əsasa artırılması ilə kök və ya əsasın mənası dəyişir. Sözdüzəldici şəkilçinin vacib xüsusiyyəti onun yeni əsas yaratması ilə bağlıdır. Kök dilin tipindən asılı olmayaraq mövcud olan dil vahididir. Kök nə aqlütinativ, nə də flektiv dillərdə dəyişib başqa, yeni kökə çevrilmir. Sözdüzəldici affiks əsas əmələ gətirir. Flektiv dillərdə yaranan əsas müstəqil lüğəvi məna daşıyan söz olur və törədici əsas funksiyasında çıxış edir. Aqlütinativ dillərdə lüğəvi mənası olan kökə sözdüzəldici şəkilçi artırılaraq yeni söz düzəlir və bu sözə əsas deyilir. Sözdüzəldici şəkilçilərin əsas funksiyası yeni leksik vasitələr yaratmaqdır. Ona görə də, bu affikslər sözdüzəltmənin vacib vasitəsidir.

Aqlütinativ dillərdə sözdüzəltmə, əsasən, sözdüzəldici şəkilçilərin köməyi ilə gedir. Azərbaycan dilinin sözdüzəldici şəkilçilər arsenalı genişdir. Aqlütinativ dillərdə sözdüzəldici affikslər problemi bir sıra aspektlərdən tədqiq olunmalıdır. Birinci aspekt sözdüzəldici affikslər toplusunu müəyyənləşdirməkdən ibarətdir. Təbii ki, bu məsələ əvvəlcə konkret dil materialı üzrə öyrənilməlidir. Yəni konkret bir aqqlütinativ dilin sözdüzəldici affiksləri toplusu müəyyənləşdirilməlidir. İkinci mərhələdə sözdüzəldici affikslər çoxluğunun elementlərini müəyyən meyarlar üzrə təsnif etmək lazım gələcəkdir. Məsələn, affikslərin komponent tərkibinə görə təsnifi, sözdüzəldici affiklərin struktur təsnifi, sözdüzəldici affikslərin leksik sxemlər üzrə təsnifi, sözdüzəldici affikslərin qrammatik mənaya görə təsnifi və s. məsələlərinə baxmaq mümkündür. Sözdüzəltmənin leksik-qrammatik məsələlərini öyrənmək də mühüm əhəmiyyət kəsb edir. Morfoloji konversiya növləri, yəni sözdüzəldici şəkilçinin bir nitq hissəsinə aid kök və ya əsasdan başqa nitq hissəsinə aid söz düzəltməsinin mümkün variantlarını aşkara çıxarılmalıdır.

Bir dil əsasında aparılan belə fərqli istiqamətli araşdırmalar həmin dilə aid ümumi mənzərəni açacaqdır. Eyni məsələlərin ikinci və üçüncü dil materialları üzrə öyrənilməsi müqayisəli, müqayisəli-tutuşdurma tədqiqatlarının, nəhayət, tipologiyanın aparılmasına zəmin yaradacaqdır. Dilçiliyin müasir mərhələdəki vəziyyəti bir çox dillər üzrə ayri-ayrı istiqamətlərdə tədqiqat nəticələrinin mövcudluğunu təsdiq edir. Deməli, belə tədqiqatların nəticələrindən istifadə etmək imkanlarından bəhrələnmək mümkündür. Aqlütinativ dil olan Azərbaycan dilinin sözdüzəldici şəkilçiləri ilə bağlı bir çox tədqiqat işləri vardır. [1, s.60-91; 2; 3; 4, s. 46-50; 5, s.16-18 və s.]. Azərbaycan dilinin morfologiyasına və bu dilin konkret nitq

hissələrinə, qrammatikasına aid tədqiqatların az olmayan bir qismində də sözdüzəldici şəkilçilərin müxtəlif məsələləri diqqət mərkəzinə çəkilmişdir.

Müasir Azərbaycan dilinin sözdüzəldici şəkilçiləri elementlər sayı az olmayan bir çoxluq təşkil edir. Affikslər fonemlər və onların müxtəlif saylı birləşmələri şəklindədir. Azərbaycan dilinin sözdüzəldici affiksləri çoxluqlarını fonemlərin sayı əsasında qurmaq mümkündür.

Birkomponentli (birfonemli) sözdüzəldici affikslər:

1) -a,-ə fieldən feil düzəldir; tıxmaq-tıxamaq, qalmaq-qalamaq; isimdən feil düzəldir. Qan-qanamaq,dil-diləmək, döş-döşəmək; adlardan zərf düzəldir; bir baş-bir başa, açıq-açığa;

2) -ı,-i,-u,-ü – isimdən isim düzəldir; vağzal-vağzalı ; feillərdən isim düzəldir; çəkmək-çəki, yazmaq-yazı, sürmək- sürümək.

Tərkibində bir komponent olan sözdüzəldici şəkilçilər sait fonemlidir və V (vocal) struktur tipindədir.

B.Xəlilovun təqdim etdiyi sözdüzəldici şəkilçilər siyahısında konsonant (C) “-m” qeyd edilmişdir. Müəllif bu affiksin qeyri-məhsuldar olduğunu və onun sifətdən isim əmələ gətirdiyini yazmış, quru - qurum nümunəsini vermişdir [1, s.89].

S. Cəfərovun və M. Hüseynzadənin işlərində isimdən sifət düzəldən “-m” şəkilçisi haqqında məlumat yoxdur.

İ.T.Məmmədov da “-m” şəkilçisini qeyd etməmişdir. Onun işində “-c” şəkilçisi vasitəsi ilə feildən hərəkət adı, obyekt, əlamət mənalı isimlərin düzəlməsi (sevinc, qazanc, tıxac) göstərilmişdir [6, s.81].

“-c” sözdüzəldici affiksi feildən sifət düzəldir: qıcqanmaq-qısqanc.

Saitlərdən a, ə, ı, i, u, ü, samitlərdən “-m”, “-c” ayrılıqda sözdüzəldici şəkilçi kimi işlənir. Deməli, Azərbaycan dilində birkomponentli V struktur tipli altı, C tipli iki sözdüzəldici affiks vardır.

Azərbaycan dilində ikikomponentli, yəni tərkibində iki fonem olan sözdüzəldici affikslər çoxdur. Bu cür şəkilçilərin iki struktur tipi mümkündür: 1) VC; 2) CV.

B. Xəlilov iki struktur tipə aid 32 sözdüzəldici affiksi sadalamışdır: -aq,-ək; -al, -əl; -la,-lə; -an,-ən; -ar,-ər;-əc, -ac;-qa, -gə,-ğa -gə; -qı, -ki, -qu,-kü; -ğı, -gi, ğu, -gü; -ən; -vi; - ıq, -ik, -uq, -ük; -ıd, -id,- ud, -üd; -ım, -um, -üm, -im; -ın, in, -un,-ün; ır, -ir, ür,- ur; -ıt, -ut,-üt,-it; -ıx, -ik,-ux; -cu;-ış,-iş,-uş,-üş; -kı,-ki, -kü, -ku;-la, -lə; -lı, -li, -lü,-lu;-ta, -tə; -ov, -öv; -tı, - ti, -tu, -tü; -ça, -çə;-çi, çu, -çı, -çü ;-ca, -cə; -iş; -xa; -kə; -er [1, s.61-90].

Struktur tiplərdən VC 16 və CV 16 affiksdə qeydə alınır.

Üç komponentdən ibarət olan CVC tipli aşağıdakı şəkilçilər siyahıya salınmışdır; -yan, -yən -baz, -qan, -kən, ğan, -gən, -qac, gəc, - ğac,- gəc, - ğın, -kin, -qun, -kün, -qın, -gin, -gün, -ğun, -dan, -dən, -dar, -dər, -daş, -dıq, -dik, -duq, - dük, -yış, -yiş, -yüş, -kar, -keş, - kəm, -kən, -gər, -laq, -lək. -lan, -lən, -lar, -lər, -lat, -lət, -laş, -ləş, -lıq, -lik, -luq, -lük, -maq, -mək, -maz məz , -man, -mış, -miş, -müş, muş,-

sız, -siz, -suz, -süz, -xor, -caq, - cək, -saq, -sək, -caq, -cək, -maz, -məz , -laş, -cıq, -cik, -cuq, -cük, -cıl, -cil, -cul, -cül, -gir, -xah, -gah, -nik, -tuq, -sal, -qar, -mur.

Bu struktur tip 41 affiksi əhatə edir.

VCV tipi: -ala, -ələ, -anə, -ulu, -ülü, -ıcı, -ici, -ucu, -ücü, -ova.

VCVC tipi: – anaq,-ənək, -araq, -ərək, acaq,-əcək, ağan, -əyən, ıcıl, -əcər , -axay

CVCV tipi: -yana, -dakı, -dəki. -zadə, -yıcı, -yici, -yucu, -yücü, -maca, -məcə, -xana -yeva, -xala, -kələ.

VCC tipi: – izm, -ist, -ınc, -inc, -unc, -ünc, -ant.

VCCVC tipi: – iyyat, -iyyət, -ıstan, -istan, -ustan, -üstan, -ısqal.

VCCV tipi: -ılda, -ildə, -ulda, üldа, -üldə,-altı, -ilti, -ültü, -ınkı, -inki, -ünkü, -unku, -inti, -ıntı, -untu, -üntü, -ıncı, -inci, -uncu, -üncü.

CCV tipi: – ncı, -nci.

CVCVCC tipi; - -pərəst.

CCVC tipi: -stan.

CVCVC tipi: – cılıq, -çilik, -çuluq, -çülük, -cadan, -cədən, -cığaz, -ciyəz, -cuğaz, -cüğaz, -şünas.

CVCVCV tipi: -casına, -cəsinə.

Sözdüzəldici affikslərin komponent tərkibi Azərbaycan dilində 1-dən 7-yə qədər dəyişir. Yəni sözdüzəldici affiks ən azı bir (məsələn: -ı, -i, -u, -ü, -c) fonemdən maksimum 6 fonemdən təşkil olunur. Mövcud elmi mənbələrdəki sözdüzəldici affikslər əsasında aparılmış təhlil hələ ki bunu təsdiq edir. Təhlil prosesində altı fonemdən ibarət iki sözdüzəldici affiks aşkara çıxardılmışdır: -pərəst, -casına, -cəsinə. İkinci affiks ikivariantlıdır. Birinci sözdüzəldici affiks fars dilindən alınmadır və atəşpərəst, xaçpərəst, şöhrətpərəst kimi atributiv isimlərin əmələ gəlməsində iştirak edir. Şəkilçinin fars dilindən Azərbaycan dilinə söz tərkibində keçməsi, sonradan sözdüzəldici şəkilçi kimi işlənməsi şübhə doğurmur. Bununla belə, -pərəst sözdüzəldici şəkilçisi məhsuldar olmasa da, Azərbaycan dilinin sözdüzəltmə prosesində iştirak edir. Affiksin sözə əlavə olunaraq yaratdığı mənanı əmələ gətirən və dilin özünə aid olan sözdüzəldici şəkilçinin yoxluğu onun işlənməsinə imkan verir. Altıkomponentli ikinci sözdüzəldici affiks (-casına, -cəsinə) adlardan tərzi-hərəkət zərfləri düzəldir. Məsələn, qəhrəmancasına, düşməncəsinə, xəyanətkarcasına və s. bu affiks də Azərbaycan dilində məhsuldar deyildir. Dildə onun düzəltdiyi sözlərdəki mənanın başqa vasitələrlə ötürülməsi mümkündür. Ümumiyyətlə, Azərbaycan dilində sözün orta fonem uzunluğu böyük deyil. Affiks özü 6 fonemdən ibarət olduğuna görə, əsasa artırıldıqda fonem sayı böyük olan söz əmələ gətirir. Yuxarıda nümunə kimi verilmiş sözlərdən fonem tərkibinə görə ən kiçiyi 12 fonemdən ibarətdir. Tərkibi beş fonemdən ibarət olan sözdüzəldici şəkilçilər də Azərbaycan dilində azdır və onların bir qismi alınmalardır.

Azərbaycan dilində sözdüzəldici sözdüzəldici affikslərin 12 struktur tipi qeydə alınır. Bu struktur tiplərdən ikisi 6, ikisi 5, dördü 4, dördü 3, ikisi 2, ikisi birkomponentlidir. Komponent affiksin tərkibdəki fonemdir.

Struktur tiplərin düzəlməsində iştirak edən fonemlərin kəmiyyət, fonetik və fonotaktik xüsusiyyətləri sözdüzəldici affikslərlə bağlı bəzi məsələləri araşdırdıqdan sonra öyrənmək məqsədəuyğundur.

Sözdüzəldici affikslərə variantlılılıq xasdır. Təbii ki, variantlılıq bütün sözdüzəldici affikslər üçün səciyyəvi deyildir. Bununla belə, variantlılıq daha çox yayılmışdır. Sözdüzəldici affikslərdə 2, 3, 4, 5, 6, 8, 9 variantlılıq müşahidə olunur. Hər şeydən əvvəl, bu variantlılığın səbəblərini aydınlaşdırmağa çalışaq.

Affikslərdə variantlılıq, əsasən, fonematik qanunauyğunluqlarla bağlıdır və fonologiya, fonotaktika və morfologiya çərçivəsində aydınlaşır. Azərbaycan dilində ahəng qanunu, sait fonemlərin söz və sözforma daxilində müəyyən qaydalar əsasında birləşməsi tələbini ortaya atır. Bu dildə saitlərin ardıcıl işlənməsi normadan kənara çıxır. Dilin öz sözlərində iki saitin ardıcıl işlənməsinə rast gəlinmir.

Affikslə kökün, əsasın, sözformanın birləşməsi zamanı affiksi qəbul edən tərəfin (işarələnin) son hecasındakı, yaxud sonuncu saiti affiksin birinci saiti ilə ahəngə görə uzlaşır. Burada qalınlıq-incəlik, həmçinin dodaq-damaq ahəngi nəzərə alınır. Birləşmə, yaxud qovşaqda sait+sait birləşməsinin alınmasına yol verməmək məqsədilə bitişdirici samitdən, yaxud affiksdən saitin düşməsindən, ümumiyyətlə səsdüşümündən istifadə olunur.

Sözdüzəldici affiks ikivariantlı olduqda qalınlıq/incəlik ahəngi nəzərə alınır. İkivariantlı sözdüzəldici affikslərdən birincisi qalın A, ikincisi incə Ə saiti ilə formalaşır. Məsələn, -aq, -ək, -alaq, -ələk. Yat+aq=yataq, yat+alaq=yatalaq, döy+ənək=döyənək, biç+ənək=biçənək

Kök və affiksin birləşməsi qalın-qalın (a, i, o,u →a) incə-incə ( i, e, ə, ö, ü→ə) qaydasına əsaslanır.

Dörvariantlı affikslərin birləşməsi dodaq-damaq ahənginə əsaslanır, affiks variantlarında ı, i, u, ü fonemləri işlənir. Məsələn -lıq, -lik, -lük, -luk

Ahəng qaydası aşağıdakı kimidir.

1) qəbul edən tərəfin son saiti a, ı olduqda i ilə başlanan affiks
2) qəbul edən tərəfin son saiti e, ə, i olduqda i ilə başlanan affiks
3) qəbul edən tərəfin son saiti o, u olduqda u ilə başlanan affiks
4) qəbul edən tərəfin son saiti ü, ö olduqda ü ilə başlanan affiks əlavə olunur.

Mənası eyni olan, formal yaxınlığa malik morfemlər eyni mövqedə bir-birini əvəz edə bilmədikdə allomorf adlanır. Yuxarıda sözdüzəldici affiksin variantı kimi təqdim edilmiş morfemlər, eyni bir affiksal morfemin allomorflarıdır. -ış, -iş, -uş,-üş, -yış, -yiş,- yüş, -yuş, eyni affiksal morfemin allomorflarıdır. Feilin kökü saitlə bitdikdə "-y" ilə başlanan variantlardan birinin artırılması ilə yeni söz düzəldilir. Kökün son saiti dörd variantdan birini seçməyə imkan verir. Bu sözdüzəldici affiksin "-ş" allomorfu da vardır. Feilin saitlə bitən kökünə artırılaraq isim əmələ gətirir.

Lakin bu sözdüzəldici morfem saitlə bitən bütün feillərin köklərinə artırıla bilmir. Məsələn, aramaq feilinin kökü ara- yış” sözdüzəldici affiksini qəbul edir: ara+yış=arayış.

Azərbaycan dilində sözdüzəltmə mexanizmində müəyyən məhdudiyyətlər vardır. Məsələn, yuxarıda verilmiş sözdüzəldici affikslər feil kökünə artırılır və feillərdən isim düzəldir. Qeyd olunmuş şəkilçi bütün feillərdən isim düzəltmədə iştirak etmir. Bir çox feillərin kökləri bu sözdüzəldici affikslə birləşmir. *Açmaq* feilindən *açış, saçmaq* feilindən *saçış, qorxmaq* feilindən *qorxuş* və s. kimi yeni söz düzəlmir.

İki, dörd və səkkiz allomorflu sözdüzəldici şəkilçilərin kök və əsasa birləşmə mexanizmini aydınlaşdırmaq, izah etmək çətinlik törətmir. Lakin 5, 6, 7 və s allomorfların mövcudluğu hallarında birləşmə mexanizmi və yeni sözün yaranması məsələsini ayrılıqda təhlil etmək lazım gəlir. Onu da qeyd edək ki, sözdüzəldici affiks müəyyən nitq hissəsinə aid sözə artırılır və bu zaman eyni, yaxud fərqli nitq hissəsindən olan yeni leksik vahid əmələ gəlir. Fikrimizcə, bir nitq hissəsinə aid sözə artırılaraq yeni söz düzəldən sözdüzəldici affiksin sözdüzəltmə potensialı, imkanlarını aydınlaşdırmaq, sözdüzəltmədə özünü göstərən məhdudiyyət şərtlərini aşkara çıxarmaq vacibdir.

S.Cəfərov göstərir ki, hərəkət bildirən isimləri əmələ gətirən -ış, -iş, -uş, -üş (baxış, bildiriş, duruş) affiksi feilin qarşılıq və müştərək növünə məxsus şəkilçilərdən törəmişdir. Əvvəlki mənşəyindən ayrılaraq yeni funksiya daşımağa başladıqdan sonra, bu şəkilçilərin fonetik tərkibi dəyişmişdir. Onlar saitlə bitən feilə artırıldıqda “ş“ samiti kimi çıxış edir. Feillərdən isim əmələ gətirildikdə isə saitlərdən sonra bitişdirici “y” samitindən istifadə olunur [2, s.19]. Samitin artırılması affiksal morfemin daha dörd allomorfunun ortaya çıxmasına səbəb olur.

Mövcud qrammatikalarda konkret nitq hissələri bəhslərində həmin nitq hissələrinə aid yeni vahidlərin düzəlməsi məsələləri təhlilə cəlb edilir. Sözdüzəldici affiksləri bu istiqamətdə öyrənmək xüsusi maraq kəsb edir. Ona görə də sözdüzəltmə mexanizmini ayrı-ayrı nitq hissələri üzrə nəzərdən keçirmək özünü doğruldur.

Sözdüzəldici affiksin artırıldığına, eləcə də, sözdüzəltmə prosesindən sonra yaranan sözün nitq hissəsinə aidliyinə görə sözdüzəldici şəkilçilərin iki növünü ayırmaq olur: 1) bir nitq hissəsindən eyni nitq hissəsi düzəldənlər; 2) başqa nitq hissəsi düzəldənlər.

Birinci qrup üç alt qrupa bölünür: 1) isimdən isim düzəldənlər; 2) feildən feil düzəldənlər; 3) zərflərdən zərf düzəldənlər.

M. Hüseynzadə isim bəhsində düzəltmə isimlər paraqrafında sözdüzəldici şəkilçiləri dörd qismə ayırmış, birinci qismi adlardan, dördüncü qrupa feillərdən isim düzəldən Azərbaycan dili sözdüzəldici şəkilçilərini daxil etmişdir [3, s.28-40].

Adlardan isim düzəldən şəkilçilərin sayı 5, feildən isim düzəldən affikslərin sayı isə 22 təşkil edir.

S. Cəfərov “ Azərbaycan dilində sözdüzəldici və sözdəyişdirici şəkilçilər ” kitabının sonuna şəkilçilərin göstəricisi adlı əlavə daxil edilmişdir [2, s.87-108]. Bu göstəricidə sözdüzəldici omonim şəkilçilər də nəzərə alınmaqla 109 sözdüzəldici, 49 sözdəyişdirici şəkilçi yer almışdır. Bizim hesabımızda allomorfların sayı göstərilmir. Yəni -dıq, -dik, -duq, -dük dörd şəkilçi variantı bir şəkilçi kimi götürülmüşdür. Yaxud səbəb bildirən feili bağlama düzəldən 8 şəkilçi (-dığımdan, -diyimdən və s ) variantı bir şəkilçi kimi qəbul edilmişdir. Bu variantları ayırmaq, fikrimizcə, şəkilçilərin struktur xüsusiyyətlərini öyrənmək üçün əhəmiyyət daşımır. Yeri gəlmişkən onu da qeyd edək ki, B. Xəlilov bu şəkilçilər göstəricisini müəllifə istinadla öz dərsliyinə daxil etmişdir [ 1, s.61-95].

M.Hüseynzadənin dərsliyində adlardan isim düzəldən şəkilçilər S.Cəfərovun siyahısında, demək olar ki, tam şəkildə əksini tapmışdır. Diqqəti cəlb edən bir fərq ondan ibarətdir ki, M. Hüseynzadənin I qisim kimi ayırdığı qrupda -laq, S.Cəfərovda isə “-laq”, “-lək” şəkilçisi verilmişdir.

S.Cəfərov bu şəkilçini “*isimlərə əlavə edilərək, atributiv isimlər əmələ gətirən leksik-qrammatik şəkilçi*” kimi təqdim etmişdir [2, s. 95]. M.Hüseynzadə “-laq” şəkilçisi haqqında yazmışdır: *“-laq” şəkilçisi vasitəsi ilə yer bildirən isimlər düzəlir: məsələn: yaylaq, otlaq, duzlaq, qışlaq və s.*” [3, s. 29-30]. S.Cəfərovda *dişlək* nümunəsi vardır ki, bunda bilavasitə məkan mənası yoxdur və maraqlı olan budur ki, yalnız bu söz “-lək” variantı əsasında formalaşmışdır.

Bu və ya digər sözdüzəldici affiksin müəyyən kökə, yaxud əsasa artırılmasından sonra əmələ gələn yeni sözün semantikasının izahında iki semioloji amil öz rolunu oynayır. Birinci semantik amil kökün mənası, ikincisi isə sözdüzəldici şəkilçidəki sem amili ilə ortaya gəlir. Yeni morfoloji birləşmə yeni məna daşıyır. Eyni şəkilçinin müxtəlif sözlərə artırılaraq düzəltdiyi yeni sözləri konkret semantik qrupda birləşdirmək, eləcə də bu sözləri semantik təsnif etmək, fikrimizcə, o qədər də asan deyil.

M.Hüseynzadə feillərdən isim düzəldən şəkilçilər sırasında “-gəc” morfemini vermiş, onun alət adları bildirən isimlər əmələ gətirməsini göstərmişdir (süzgəc, üzgəc) [3, s.40]. S.Cəfərovda bu affiks dördvariantlıdır: -qac, -kəc, -ğac, -gəc. Feillərdən substantiv isimlər əmələ gətirən şəkilçi kimi izah olunur. Şəkilçinin istifadəsinə aid üç nümunə verilir ki, onlardan *sarğac* fərqlidir [2, s.89]

Müqayisə davam etdirsək sözdüzəldici affikslərin bir qisminin S.Cəfərovun siyahısında qeyd olnmasını, bəzi affiksal allomorfların artırıldığını müşahidə edəcəyik. Təbii ki, aqqlütinativ Azərbaycan dilinin müzsir vəziyyətində işlənən sözdüzəldici affikslərin ümumi sayında müəyyən dəqiqləşmələr aparmaq olar. Bununla belə, mövcud sözdüzəldici affikslərin tam, dəqiq miqdarını, onların siyahısını tərtib etmək çətindir. Məsələyə diaxron planda baxsaq, bir çox sözdüzəldici şəkilçilərin istifadədən çıxdığını, hazırki şəkilçilərin bəzilərinin iki və daha artıq şəkilçinin birləşməsindən yaranması haqqında müəyyən fikirlər irəli sürmək də mümkün olacaqdır. Aydındır ki, müasir türk və türk dillərindən başqa

birinin sözdüzəldici affiksləri ilə müqayisələr aparmaq üçün materiallar da vardır. Təhlil göstərir ki, bu istiqamətdə araşdırmalar aqqlütinativ dillərin sözdüzəldici şəkilçilər mənzərəsində əsaslı dəyişmələr aşkara çıxarmayacaqdır.

Aqlütinativ dillərdə bir kökə beşdən artıq şəkilçinin artırılması ilə fərqli sözün düzəlməsi, eyni kökə ardıcıl olaraq iki sözdüzəldici affiksin əlavə edilməsi faktları təsdiqini tapır. Bir sıra şəkilçilərin artırılması zamanı kökdə müəyyən fonetik dəyişmələr baş verir. Lakin bu zaman kökün semantikası dəyişmir.

## ƏDƏBİYYAT

1. Xəlilov, B. Müasir Azərbaycan dilinin morfologiyası. I h./ B.Xəlilov. -Bakı: Elm, 2007. -280 s.
2. Cəfərov, S. Azərbaycan dilində sözdüzəldici və sözdəyişdirici şəkilçilər / S.Cəfərov. – Bakı: Maarif, 1968. – 107 s.
3. Hüseynzadə, M. Müasir Azərbaycan dili/M.Hüseynzadə. -Bakı: Maarif, 1973. – 358 s.
4. Seyidov, Y. Azərbaycan dilinin qrammatikası/Y.Seyidov. -Bakı: BU nəşri, 2002. – 371 s.
5. İsrafilova, R.D. Kök və şəkilçi.//Müasir Azərbaycan dili. II c. Morfologiya./ R.D.İsrafilova. – Bakı: Elm, 1980. –S.12-21.
6. Məmmədov, İ.T. İsimlərin quruluşca növləri// Müasir Azərbaycan dili. II c. Morfologiya./ İ.T.Məmmədov. – Bakı: Elm, 1980. –S. 69-95.

**SALMANOVA SHAFA**

## COMPONENT ANALYSIS OF AFFIXES

### Summary

All non-stem morphemes are affixes. Affixes are added to the root or stem and have no lexical meaning. The last aspect is considered leading, and therefore only morphemes with grammatical meaning are called affixes. Affixes can be distinguished as derivational and inflectional affixes.

By adding these affixes to the root or base, the meaning of the root or base changes. An important feature of the lexical suffix is that it creates a new base. In agglutinative languages, a new word is formed by adding a derivational suffix to the root with a lexical meaning, and this word is called the base. In inflectional languages, the resulting main word is a word with an independent lexical meaning and performs the main function of the affix.

**Key words**: root, suffix, affix, inflectional affixes and derivational affixes.

**САЛМАНОВА ШАФА**

# КОМПОНЕНТНЫЙ АНАЛИЗ АФФИКСОВ

**Резюме**

Все неосновные морфемы являются аффиксами. Аффиксы присоединяются к корню или основе и не имеют лексического значения. Последний аспект считается ведущим, поэтому аффиксами называются только морфемы, имеющие грамматическое значение. Аффиксы принято делить на словоизменительные и словообразовательные аффиксы.

При добавлении этих аффиксов к корню или основе значение корня или основы меняется. Важной особенностью лексического суффикса является то, что он создает новую основу. В агглютинативных языках новые слова образуются путем присоединения к корню словоизменительные суффикса, имеющего лексическое значение, и это слово называется основой. В флективных языках образующееся главное слово представляет собой слово, имеющее самостоятельное лексическое значение и выполняющее основную функцию.

**Ключевые слова:** корень, суффикс, аффикс, словоизменительные аффиксы и словообразовательные аффиксы.

**Redaksiyaya daxil olma tarixi: 15.12.2023**
**Çapa qəbul olunma tarixi: 30.12.2023**
**Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru Əhmədova Sevinc Sabir qızı tərəfindən çapa tövsiyə olunmuşdur**